**“Xalq Cəbhəsi”.-**2013.-2 mart.-N 40.-S.11.

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

## Bakıya hücum ərəfəsində Nuru Paşanın ordusunda 6 min Azərbaycan türkü var idi

### II yazı

**Azərbaycan Xalq Cümhuriyyətinin tarixində 1918-ci ilin 15 sentyabrına kimi olan dövr dövlətimizin hər mənada varlığını təsdiq dövrü idi. Bu dövrədək milli ordu quruculuğu ilə bağlı müəyyən işlər görülsə də, Bakının düşmən əlində olması idi. Cümhuriyyətin imkanlarını məhdudlaşırdı. Ona görə də nəyin bahasına olur-olsun, Bakı azad olunmalı idi.**

1918-ci ilin 15 sentyabrı isə dövlətçiliyimizin tarixində əvəzsiz məqamlardandır. Hər şeydən əvvəl 15 Sentyabrın siyasi əhəmiyyəti vardı. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti 1918-ci ilin 15 sentyabrına kimi Gəncədə fəaliyyət göstərirdi. Xüsusən Sovet Rusiyası gənc Cümhuriyyəti yıxmaq üçün hər cür fitnə-fəsada əl atırdı. Təsadüfi deyil ki, bir neçə ay əvvəl — 1918-ci ilin martında Bakıda bəşər tarixində ən dəhşətli soyqırımlardan biri törədilmişdi. 2-3 gün ərzində Bakıda 12 min türk soydaşımız qətlə yetirilmişdi. Belə bir zamanda gənc cümhuriyyətin ayaqda qalması, millətimizin siyasi iradəsini təsdiq etməsi üçün Bakı kimi strateji cəhətdən əhəmiyyətli mövqedə yerləşmiş, əhalinin daha çox cəmləşdiyi, sənayenin inkişaf etdiyi, xüsusən zəngin neft mədənlərinin olduğu ərazinin paytaxt kimi tanınması Azərbaycanın halal, tarixi əraziləri uğrunda mübarizəsinin yeni səviyyədə vüsət alması demək olacaqdı. Bu mənada Bakının azad olunmasının iqtisadi əhəmiyyəti barədə də bizcə, geniş danışmağa ehtiyac qalmır. Xarici dövlətlər, o cümlədən də Rusiya Bakı neftini ələ keçirmək uğrunda ölüm-dirim savaşına qalxmışdılar. Belə bir zamanda qəhrəman türk ordusunun Azərbaycana köməyə gəlməsi hadisələrin sonrakı inkişafında Azərbaycan Xalq Cümhuriyyətinin müəyyən dövrdə də olsa, özünə gəlməsinə, müstəqil dövlət olaraq tanınmasına ciddi təkan verdi. Digər tərəfdən də bu hadisə iki qardaş türk xalqının mənəvi birliyinin sübutu oldu.

Beləliklə, 1918-ci il sentyabrın 15-də Bakı azad olundu. O zaman neçə aydan bəri Gəncədə müvəqqəti məskunlaşan ADR hökuməti Bakıya köçdü. Məhz hökumətin Bakıya köçməsi yeni yaranmış cümhuriyyətin müəyyən müddət mövcudluğunu qoruyub saxlamasında əhəmiyyətli rol oynadı. Bakının azad olunmasında, Azərbaycanın bir çox bölgələrini erməni vəhşiliyindən, qatilliyindən xilas olunmasında böyük xidməti olan Nuru Paşa 1889-cu ildə İstanbulda hərbçi Əhməd Tofiqin ailəsində anadan olub. Ulu babalarının Krım türklərindən olduğu bildirilir. 1906-cı ildə quru qoşunları hərbi məktəbinə daxil olub, 3 il sonra həmin məktəbi leytenant rütbəsi ilə bitirərək 3-cü ordu komandanlığında zabit kimi xidmətə başlayıb. 1910-cu ildə padşaha məxsus piyada bölüyünə keçirilib. 1911-ci ildə Hərbi Akademiyanı bitirib, 2 il sonra yüzbaşı (kapitan), 1916-cı ildə minbaşı (mayor), 1918-ci ildə isə yarbay (podpolkovnik) rütbələri alıb. 1-ci Cahan savaşı illərində Şimali Afrika cəbhəsində Liviya ərazisində cəbhə komandanı olaraq döyüşlərə rəhbərlik edib. Şücaətlərinə görə Almaniyanın, Avstriya-Macarıstanın və Türkiyənin medalları ilə təltif edilib. 1918-ci ilin yazında Azərbaycanı və Dağıstanı xilas etmək üçün qərargah yaradılır. Nuru Paşa Qafqaz İslam Ordusunun komandanı təyin olunur. O, Osmanlı dövlətinin hərbi naziri Ənvər paşanın qardaşı idi. Bu dövrdə Bakı nefti uğrunda gedən mübarizədə Almaniyanın şübhələndirilməməsi üçün ordunun məhz belə adlandırılması, ordunun əsgəri qüvvəsinin Azərbaycan Türklərindən yaradılacağı ideyası ortada idi. Əvvəlcə Təbrizə gələn Nuru Paşa Urmiya ətrafında ermənilərəağır zərbələr endirir. Mayın 20-də Zəngəzura çatır, camaat tərəfindən sevinclə qarşılanır. Mayın 25-də Gəncəyə gəlir, qısa müddətdə Gəncədən Zəngəzura kimi olan bölgələrdə asayiş yaradır. İyunun 20-də Bakının azad edilməsi planını gerçəkləşdirmək üçün Ənvər Paşaya müraciət edir, əlavə qüvvə, hərbi sursat alır. Bu dövrdə Bakı Sovetinin tabeliyindəki qüvvələrin sayı 20 min nəfərdən çox idi. Bakıya hücum ərəfəsində Nuru Paşanın tabeliyində 14 min nəfər döyüşçü vardı: bunun 8 minini Türkiyə, 6 mini isə Azərbaycan Türkləri təşkil edirdi. Nuru Paşa işğalçılar qarşısında şəhərin danışıqsız təslim olunması, əsgərlərin şəhərin müdafiəsindən çəkilməsi, silahların, döyüş sursatlarının, əmlak və binaların təhvil verilməsi, Bargin adasında saxlanılan türk, alman, avstriyalı hərbi əsirlərin geri qaytarılması, zirehli maşın, təyyarə və digər anbarların təhvil verilməsi kimi tələblər qoyur. Sentyabrın 14-də başlayan hücum 15-də qələbə ilə başa çatır. Türk qoşunları Bakının azad olunması zamanı 1130-dan artıq şəhid verib. 1918-ci il sentyabrın 23-də Türkiyənin baş naziri Tələt Paşanın Almaniya ilə bağladığı gizli protokola əsasən Osmanlı dövləti qüvvələrini Azərbaycandan çıxarmaqla bağlı öhdəlik götürür. Noyabrın 30-da Atlanta ilə Osmanlı dövləti arasında «Mudros» sülh müqaviləsi imzalanır: Osmanlı dövləti Bolqarıstan və Avstriya-Macarıstandan sonra məğlubiyyətini etiraf edir. Beləliklə, qəhrəman türk ordusunun

Azərbaycanı tərk etməsi məsələsi qaçılmaz olur. 1920-ci il aprel çevrilişindən sonra Nuru Paşa gizlincə Dağıstandan keçərək Qarabağa gəlir, Qarabağda və Zaqatalada xalqı sovet imperiyası əleyhinə üsyana qaldırır. Lakin o, məğlub olaraq geri dönməyə məcbur olur.

Ümumiyyyətlə, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının istər siyasi, istərsə də iqtisadi, hərbi, mədəni və başqa sahələrdə gördükləri işləri təhlil edəndə onların sözün əsl mənasında fədakar, sanki anadangəlmə bu görəv üçün doğulduqlarını təsəvvür etməmək olmur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqilliyin necə şirin olduğunu anlayan, ölkənin taleyi sarıdan onu qarşıda gözləyən təhlükələri aydınca görən hərbçilərimizin əksəriyyəti bütün bunlara baxmayaraq tutduqları yoldan çəkilmədilər. Azərbaycan hökuməti az vaxtda milli ordu quruculuğu yönündə çox işlər gördü. Digər tərəfdən də o dövrdə Azərbaycan dünyada gedən ictimai-siyasi proseslərin fonunda «çıxılmazlıq sindromu» qarşısında qalmışdı. Dünya bolşevik Rusiyasının qalmasını o dövrdə yaranmış yeni müstəqil dövlətlərin varlığından üstün tuturdu. Digər tərəfdən də Azərbaycanın üzərinə 100 min nəfərlik rus ordusu gəlirdi. Azərbaycan ordusu düşmən ordusuna qarşı müqavimət göstərdisə də, az sonra qüvvələrin qeyri-bərabərliyi səbəbindən ölkəmiz Rusiya imperiyası tərəfindən yenidən zəbt olundu.

**Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru Maarif Teymur** bildirir ki, rəhbərlik etdiyi arxivdə Fətəlibəyli Düdənginski ilə bağlı da maraqlı soraqlar var. O, cümhuriyyət qurulan zaman çox gənc olub. 1937-ci ildə Moskvadakı Hərbi Akademiyada oxuyub, 2-ci Cahan Savaşında iştirak edib, əsir düşüb, sonra da legionerlik fəaliyyəti göstərib. Onun Azərbaycan Xalq Cümhuriyyəti dövrü hərbi xadimlərimiz haqqında yazıları olub, təəssüf ki, bizə gəlib çıxmayıb. Arxivdə saxlanılan «Azərbaycan» qəzetinin səhifələrində o dövr milli ordu quruculuğuna dair də xeyli qiymətli soraqlar var».

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordumuzun yaranması və yaşamasında mühüm xidmətlər göstərmiş, 21 döyüş generalından biri general-leytenant Məmmədbəy Aleksandroviç Sulkeviç haqqında da söz açmaq yerinə düşərdi. Bu barədə ətraflı bilgiyə yazıçı, **tanınmış araşdırmaçı-jurnalist Şəmistan Nəzirlinin** araşdırmalarında rast gəlirik. General Sulkeviç milliyyətcə Litva tatarıdır. Atası Aleksandr Qusar alayında xidmət edib, polkovnik rütbəsinə kimi yüksəlibmiş: «Arxiv sənədlərindən aydın olur ki, Məmmədbəy Sulkeviç Azərbaycana 1918-ci ilin dekabrında gəlib, 1919-cu il martın 26-dək Gəncədə yerləşən 1-ci Müsəlman Korpusunun komandiri olub. Həmin tarixdə 147 saylı əmrlə baş qərargah rəisi təyin olunub. General Sulkeviç 1865-ci il iyunun 20-də Kemeyşi yaşayış məntəqəsində dünyaya gələndə atası onun adını Maçeybəy qoysa da, sonralar Krımdakı fəaliyyətinə görə tatarlar hörmət əlaməti olaraq ona «Süleyman Paşa» adını vermişlər. Azərbaycanda isə özü könüllü olaraq «Məmmədbəy» adını qəbul etmişdi».

Ş.Həzirli arxiv sənədləri əsasında bu qənaətə gəlir ki, o zaman general Sulkeviç Azərbaycana tək gəlməyib: «Kazımbəy Sulkeviç Müsavat Hökumətinin Xarici İşlər Nazirliyinin dəftərxana direktoru olub. Generalın həyat yoldaşı Məryəm xanım isə N.Tağıyevin qız məktəbində müəllim işləyib, fəal ictimaiyyətçi qadın olub. Digər bir ziyalı qadın Leyla xanım Sulkeviç isə Azərbaycan parlamentinin dəftərxana işləri idarəsində iş icraçısı vəzifəsində işləyib». Ş.Həzirlinin araşdırmalarından daha sonra məlum olur ki, 1919-cu il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan arasında hərbi ittifaqın bağlanmasında Məmmədbəy Sulkeviçin böyük rolu olub: «Bu təşəbbüsü o, irəli sürmüşdü».

Araşdırmaçı qeyd edir ki, 1920-ci ilin mayında general Sulkeviçi həbs edib Bakı Fövqəladə Komitəsinin zirzəmisinə salırlar: «İyulun 15-də isə əksinqilabi fəaliyyətdə ittiham edilərək güllələnir. Məhəmməd Əmin Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» kitabında güllələnmiş general Məmmədbəy Sulkeviçin adını yana-yana çəkir. Onun mərd, mübariz bir şəxs olduğunu iftixarla qeyd edir. O, xatirələrində yazır:

Qardaşım, parlament üzvü Mehmed Əli bəyin hekayətini ilk dəfə xalqa çatdırmaq istəyirəm. O, qorxmaz general Sulkeviçin qəhrəmancasına ölümünün şahididir. Onunla bir kamerada olan Mehmed Əli bəy söyləyirdi: «Generala əmr etdilər ki, çekistlərin ardınca getsin. Bizə aydın oldu ki, onun ölüm saatı çatıb. Onun gözlərinə baxmağa cəsarət etmirdik, təsəlli sözü tapa bilmirdik. General Sulkeviç özü bizi qabaqladı, sakit, qətiyyətli səslə dediyi sözləri ömrüm boyu unutmayacağam. Əzablı bir ömür yolu keçərək 55 yaşında bolşevik-daşnak gülləsinin haqsız qurbanı olan general Sulkeviçin nəinki Azərbaycanda, heç Rusiya imperiyası ərazisində də sağ qalan kimsəsi yoxdur. Şuşadan, Xankəndindən, Zəngəzur ekspedisiyasından vurduğu teleqramlar, Baş Qərargah rəisi kimi verdiyi əmr və sərəncamlar onun Azərbaycanı ürəkdən sevdiyinə əyani sübutdur. Rəyasət və stol sevməyən Sulkeviç həmişə ön cəbhədə olmuş, əsgərləri döyüşə ruhlandırmışdı. General Sulkeviç haqqında heç bir araşdırma, məhkəmə istintaqı olmamışdı. O, Azərbaycan Xalq Cümhuriyyətinin generalı olduğuna görə sorğu-sualsız güllələnmişdi».

**Uğur**

**Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə hazırladığı «Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu» layihəsi çərçivəsində təqdim olunur.**